# Tariximizin kədər və qürur səhifəsi

**Otuz beş il ötür… Tarix üçün olmasa da, bir insan ömrü üçün uzun vaxtdır. Bu illər ərzində xalq olaraq ağır sınaqlarla çox üzləşdik. Əcdadlarımızın bizə ən böyük və müqəddəs mirası olan Azərbaycanın azadlığına, müstəqilliyinə yenidən qovuşması, suverenliyi naminə çox çətinliklərə, əzablara, dərdlərə qatlaşdıq. Bu yolda minlərlə can qurban oldu…**

## SSRİ rəhbərliyinin qanlı planı

Onda hələ Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur əraziləri Ermənistanın işğalına məruz qalmamışdı. Başlıbel, Malıbəyli, Ballıqaya, Quşçular, Qaradağlı, Xocalı və daha neçə-neçə faciələrlə, dəhşətli qırğınlarla, soyqırımıları ilə hələ üzləşməmişdik. Minlərlə azərbaycanlı erməni vandalları tərəfindən şəhid, ya da şikəst edilməmişdi. Bir milyon soydaşımız da işğalçıların hücumlarından, zülmlərindən yurdundan, evindən baş götürüb qaçmağa məcbur olmamışdılar.

XX əsr sonuncu onilliyinə qədəm qoymuşdu. Sovet hökumətinin daxilində müəyyən hadisələr baş verməkdə, tənəzzül yaşanmaqda idi. Ancaq yetmiş il hakimiyyətini çox sərt, çox kəskin qayda-qanunları, qərarları ilə qoruyan, hökmünü sürdürə bilən Sovet Sosialist Respublikalar İttifaqı (SSRİ) adlı imperiyanın dağılacağı hələ də inanılmaz görünürdü. "Azadlıq", "müstəqillik" sədaları isə getdikcə daha gur səslənirdi. Azərbaycan xalqı da "Azadlıq" meydanına toplaşır, azadlıq tələb edir, haqq səslərini ucaldırdı.

Tarixin yenə mürəkkəb, ziddiyyətli vaxtları idi. Fitnəkar ermənilər məqamın yetişdiyini düşünərək əsl simalarını göstərirdilər. Sovet imperiyasının rəhbərləri tərəfindən himayə olunan Ermənistan hələ 1980-ci ilin sonlarında Azərbaycana qarşı torpaq iddiasına başlamışdı. Azərbaycan xalqı ilk şəhidlərini 1988-ci ildə verdi. Həmin il fevralın 22-də Qarabağın Əsgəran bölgəsində Əli Hacıyev və Bəxtiyar Quliyev ermənilər tərəfindən qətlə yetirildilər. Azərbaycan ərazilərindən cinayət əməllərini çəkinmədən davam etdirən, münaqişəni alovlandıran erməni quldurları başıpozuq görünsələr də, əslində plan üzrə hərəkət edirdilər. Silahlandırılmış ermənilər təxribatlara əl atır, azərbaycanlılara qarşı hücumlar təşkil edirdilər. Qarabağdan qara xəbərlər gəlirdi...

## "Atəş açmayın, camaat silahsızdır"...

1990-cı ilin soyuq qış günləri idi. Qəlbi vətən eşqi ilə döyünənlər şərə boyun əymir, haqq, ədalət tələb edirdilər. Azərbaycan xalqının mətinliyi, cəsarəti SSRİ rəhbərliyini narahat edirdi. O zaman bu xalqın azadlıq arzusunu boğmaq, əsarət zəncirini yenidən möhkəmlətmək üçün qanlı plan quruldu. İki əsrdir bölünən, parçalanan, müstəmləkə altında saxlanılan Azərbaycan xalqının azadlıq harayını 1990-cı ilin yanvarında yenə də susdurmaq istəyirdilər.

Yetmiş il sonra sovet hakimiyyəti yenə qanlı əlini Azərbaycana uzatdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin göstərişi ilə respublikamızın paytaxtında çox ağır cinayətlər törədildi, dinc, günahsız insanlara qəddarcasına divan tutuldu.

Bakı şəhərində gecəyarı fövqəladə vəziyyət tətbiq olundu. Ancaq əhali biləriəkdən xəbərdar edilmədi. Sovet ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dəhşətli qətliam törədildi.

Gecə şəhərdə zirehli hərbi texnikanın gurultusu, atəş səslərinə qarışdı. Televiziya stansiyasının enerji blokunu partlatmış, televiziya yayımını kəsmişdilər. İnsanlar əvvəlcə nə baş verdiyini bilmədilər. Çaşqınlıq içərisində xəbər öyrənməyə çalışanlar can hayında deyildilər. İmperiya cəlladları paytaxtın küçələrinə, evlərinə ölüm saçır, heç kimə rəhm etmirdilər. Gözlərinin qarşısında uşaqların, gənclərin, qocaların amansızlıqla atəşə tutulduğunu görən neçə-neçə qəhrəman zirehli hərbi texnikanın qarşısına çıxaraq qışqırırdılar: "Atəş açmayın, camaat silahsızdır..." Xüsusi təlim keçmiş və tapşırıq almış sovet əsgərləri eşitdiklərinə məhəl qoymur, tankları onların üzərinə sürürdülər... Əhalinin silahsız olduğunu onlar onsuz da bilirdilər.

Təcili yardım maşınlarını atəşə tutur, güllləbaran edirdilər ki, güllə yaraları alanlar xəstəxanalara çatdırılmasın. Onların müayinə olunmalarına, cərrahiyyə əməliyyatı edilmələrinə mane olmaq üçün hətta xəstəxanaların işıqlarını belə söndürürdülər.

Yanvarın 19-dan 20-nə keçən gecə 131 nəfər qətlə yetirildi. Onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi. 744 nəfər ağır xəsarət aldı. 4 nəfər itkin düşdü. 400 nəfər isə həbs edildi. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər öldürüldü. Fövqəladə vəziyyət elan edilməmiş Neftçala və Lənkəranda 25-26 nəfər qətlə yetirildi.

## Birliyin gücü

1990-cı ilin Qanlı Yanvarında Azərbaycan xalqının sinəsinə çalın-çarpaz dağ çəkdilər. Ancaq SSRİ rəhbərliyi bu xalqın gözünü qorxutmaq, xof yaradaraq azadlıq arzusuna son qoymaq istəyinə çata bilmədi. Şəhidlərinə yas tutan, göz yaşlarına boğulan Azərbaycan xalqı cəlladların qarşısında mətanətlə, cəsarətlə dayandı, birliyi, yenilməz iradəsi ilə imperiyanın top-tüfənginə qalib gəldi. Düşmən gördü ki, nə qədər amansız, qəddar olsa da bu xalqı sındıra, sarsıda, boyun əydirə bilməyəcək.

Qanlı Yanvar hadisələrindən sonra da Azərbaycan xalqının başına çox müsibətlər gətirdilər. 1990-cı illərdə ölkəmizin iyirmi faiz ərazisini Ermənistan xarici havadarlarının köməyi ilə işğal etdi və otuz ilə yaxın əsarətdə saxladı. Həmin o ərazilər - Qarabağ və Şərqi Zəngəzur uğrunda Azərbaycanın minlərlə övladı şəhid oldu. Ancaq sonunda Zəfər ədalətin oldu. 2020-ci ilin payızında qırx dörd günlük İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusu işğalçı Ermənistanın silahlı qüvvələrini məğlubiyyətə uğradaraq Qarabağ və Şərqi Zəngəzuru azad etdi.

Azərbaycanın azadlığı, suverenliyi yolunda qurban getmiş bütün şəhidlərimiz kimi, bu gün 20 Yanvar şəhidlərinin də ruhları şaddır.

İl üstünə il gəlir. Ancaq onlar yaddan çıxmırlar. Qanlı Yanvar şəhidlərinin xatirəsini Azərbaycan xalqı daim əziz tutur. Hər il yanvarın 20-si xalq öz qəhrəmanlarının nurlu xatirəsini anmaq üçün Şəhidlər xiyabanına üz tutur. Bu il 20 Yanvar hadisələrinin otuz beşinci ilində də 20 Yanvar şəhidlərini kədərlə yanaşı, iftixarla yad edirik.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*